Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2019, **s.23-28**
Азербайджанский Государственный Педагогический Университет Актуальные проблемы музыкальной науки, культуры и образования №1, 2019, **с. 23-28**
Azerbaijan State Pedagogical University Actual problems of the science, culture and education of music №1, 2019, **pp. 23-28**

TƏLİM VƏ TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI (MUSİQİNİN TƏDRİSİ METODİKASI)

UOT 78.084

G.Ə.Axundova
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68

DİRİJORLUQ DƏRSLƏRİNDƏ "KOROĞLU" OPERASINDAN XORLARIN TƏDRİSİ

Açar sözlər: *opera, dramaturgiya, kompozisiya, xor, səhnə, final, milli ladlar*

Üzeir Hacıbəylinin "Koroğlu" operası özünün parlaq bədii obrazları, musiqi dilinin xəlqiliyi, kompozisiyasının tamlığı ilə həqiqətən Azərbaycan incəsənətinin şedevrlərindəndir. Solo və xor nömrələrinin bir-birilə hörülməsi, ariyaların xorlarla əhatə olunması, qəhrəmanların replikalarının xorların tərkibinə salınması baş qəhrəmanların xalqla bağlılığını göstərmiş olur.

Г.А.Ахундова

ИЗУЧЕНИЕ ХОРОВ ИЗ ОПЕРЫ «КЕРОГЛУ» У.ГАДЖИБЕЙЛИ НА УРОКАХ ДИРИЖИРОВАНИЯ

Ключевые слова: *опера, драматургия, композиция, хор, сцена, финал, народные лады*

Опера У.Гаджибейли «Кероглу» со своими яркими художественными образами, народностью музыкального языка, композиционной законченностью действительно является подлинным шедевром азербайджанского искусства. Переплетение сольных и хоровых номеров, обрамление арий хоровыми сценами, звучание реплик героев внутри хоров указывает на тесную связь главных героев с народом.

G.A.Akhundova

THE STUDY OF CHOIRS FROM THE OPERA "KOROGLU" BY U.HAJIBEYLI AT CONDUCTING CLASSES

Key words: *opera, dramaturgy, composition, choir, stage, finale, folk frets*

U.Hajibeyli's opera "Koroghlu" with its vivid artistic images, nationality of the musical language, and compositional completeness is indeed a true masterpiece of Azerbaijani art. The interweaving of solo and choral numbers, the framing of arias by choral scenes, the sound of replicas of the heroes inside the choirs indicates a close relationship of the main characters with the people.

Üzeyir Hacıbəylinin "Koroğlu" operası 75 ildən artıqdır ki, Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsindən səslənir. Bu opera özünün parlaq bədii obrazları, musiqi dilinin xəlqiliyi, kompozisiyasının tamlığı ilə həqiqətən Azərbaycan incəsənətinin şedevrlərindəndir.

Operanın əsas mövzusu – xanların və bəylərin zülmünə qarşı üsyan edən və qələbənin sevincini dadan azadlıqsevər xalqın mübarizəsidir. Operanın süjetinin əsasını kor mehtərin oğlu Rövşən haqqında aşıq dastanlarının motivləri təşkil edir.

Operanın bədii qiymətliliyi ondadır ki, müəllif klassik formaya milli musiqini salaraq, bunun əsasında ədalətsizliyə və zülmə qarşı birləşib etiraz edən insanların mənəvi qüdrətini göstərə və qəhrəmani-tarixi hadisələrin xüsusiyyətlərini əks etdirə bilmiş. Operanın musiqisi enerjiliyi və həyatsevər ruhuyla dinləyicini cəlb edir. Ü.Hacıbəyli folklor mənbələrinin elementlərinə yaradıcı yanaşaraq, ümumiləşdirərək, onları yeni obrazlı məzmun ilə doldurmuş. İlk dəfə olaraq o, tarın çalğısını simfonik orkestrin səslənməsinə dəyişdirmiş və əksinə olaraq, milli koloriti gücləndirmək üşün simfonik orkestrin tərkibinə tarı, kamançanı, balabanı, zurnanı salmış. Həmçinin o xalq ladlarını major-minor sistemi ilə birləşdirmiş, muğamın ahəstə axarını klassik musiqinin dinamizmi ilə gücləndirmişdir.

Opera 5 pərdədən ibarətdir. Səhnələrin bilavasitə sanki biri obirinin içinə axaraq, hərdən hətta tonal-harmonik cəhətdən bitməmiş vəziyyətdə dəyişməsi musiqi dramaturgiyasının inkişafının qırılmazlığını bir gədər də gücləndirir. "Koroğlunun" dramatik ixtilafının əsasını üsyan etmiş xalqın və onun ayrı-ayrı nümayəndələrinin feodal hakimiyyətini təmsil edən mənfi personajlarla mübahisəsidir. Xalqın arzu və istəklərini təcəssüm edən Koroğlu operanın baş qəhrəmanıdır. Onun obrazında qəhrəmanlıq və lirika birləşmişdi. Operanın baş qadın-qəhrəmanı olan Nigarın obrazı, eyniylə Koroğlununkı kimi, – dərindən

sevən qızın yumşaq lirika, qəm, kədərdən tutmuş cəsur, fədakar qəhrəmanlığa gədər çox cəhətli duyğular dünyasının təcəssümü olan ümumiləşdirilmiş obrazdır.

Solo və xor nömrələrinin bir-birilə hörülməsi, ariyaların xorlarla əhatə olunması, qəhrəmanların replikalarının xorların tərkibinə salınması baş qəhrəmanların xalqla bağlılığını göstərmiş olur. Həmçinin xalq da “Koroğlu” operasının baş qəhrəmanıdır. Xalqın çoxcəhətli obrazı: I pərdədə məzlum, narazı, hiddətli; III pərdədə qüdrətli, öz gücünə inamlı və artıq V pərdədə mübariz – ifadəli monumental səhnələr vasitəsilə yaradılmışdı. Kiçik xorlar isə səhnədə gedən hadisələrin açıqlanmasına qulluq edir.

I pərdədə səslənən “Bu gözəl” kişi xoru operanın özünəməxsus “xor introduksiyası” rolunu oynayır. Xordan əvvəl gələn 24 xanəlik orkestrin girişi əziyyət çəkən, məzlum xalqın leytmotivində qurulub. “Bu gözəl” xoru – müəllifin minorda çaargah ladının özünəməxsus formada interpretasiyasıdır. Çaargah ladının quruluşca simmetrik formasını əsas tutaraq, Ü.Hacıbəyli bu xoru variasiyalı beytləşmə formasında yazmış. Bəndlərə bənzər ayrı-ayrı beytlər müşayiətdə nəqarata bənzər təkrar olunan qısa musiqi frazaları ilə davam edir. Xorun orta hissəsində Həsən xanın adamlarının yeni azğınlıqları haqqda xəbər gətirən iki kəndli (Vəli və Nadir) iştirak edir.

I pərdənin finalında xor unisonla xanları lənətləyir. Orkestrdə məzlum xalqın leytmotivi səslənir və tezliklə o inkişaf edərək qəhrəmani mövzuya çevrilir. Buna *Alleqro Agitato* tempi və yuxarıya, qəhrəmani akordlara doğru qalxan sekvensiyalar vasitəsilə nail olunur. Koroğlunun yüksək registrdə səslənən alovlu reçitativləri insanları üsyana, mübarizəyə çağırır. Dəhşətli iztirabları, aclığı, soyuğu, döyülməni və hər bir təhqiri keçmiş xalq bu cəsarətli çağırışlarla ürəklənərəq, öz başçısının arxasınca yürüməyə qərar alır. Burada 16 xanəlik kvadrat period şəklində olan final xorunun başlanğıcı səslənir. Qeyd etmək lazımdır ki, Ii pərdənin finalında səslənən qəhrəman xalqın mövzusunun intonasiya zərrəsini Nigarın “Şərir Həsən xan...” qəhrəmani reçitativinin motivi təşkil edir.

I pərdə final xorunun təkrarı ilə bitir. Lakin təkrarda mətnin sözləri dəyişir və musiqi bir qədər sıxlaşaraq 11 xanə təşkil edir. Orkestr üsyan etmiş xalqın təntənəli mövzusunu təkrat edir.

II pərdədə hadisələr Həsən xanın sarayında cərəyan edir. Burada səslənən xor *Allegro Agitato* tempində, Fa-major tonallığında, 4/16 ölçüdə yazılmışdı. Xorun ritmi sıçrayışlı, təqibə oxşar şəkildədir. Melodiyası isə əvvəlində reçitativ xarakterlidir, sanki yerində sayır, sonra isə yuxarı uçaraq dalğavari şəkildə yenədə aşağıya doğru enir. Xor ansambl cəhətdən ifa üçün müəyyən çətinlik kəsb edir, çünki burada xromatizmlər, cəld diksiya, yüksək registrdə eyni bir notun oxunması kimi priyomlar istifadə olunur. Həsən xanın döyüşçülərinin xoru qorxu və lərzəni əks etdirir, bu mənfi düşərgənin

ümumiləşdirilmiş xarakteristikasıdır.

Operanın dramaturji mərkəzi III pərdədə Çənlibel dağlarında baş verən səhnədir. Burada üsyan etmiş xalqın ümumiləşdirilmiş obrazı geniş və ifadəli şəkildə açıqlanır. Koroğlunun çağırışları və üsyançıların mübariz rəqsləri ilə növbələnən "Çənlibel" və "Hər kəs olsa yoxsuldan" xorları bütün operanı monumentallaşdırır. III pərdənin simfonik Antraktı da azad xalqın qüdrətli obrazını təsvir edir. Antraktda (fis-moll) şur hökmranlıq sürür, bu Uvertürada səslənən qəhrəmani çağırışın ladıdır. Antrakt sonatolu *allegro* formasında yazılıb. Belə kompozisiya sonato və muğam formayaradıcılıq prinsiplərnin həmahəng birləşməsinin nümunəsidir. Qəhrəmani-xalq obrazlar, eyniylə muğam dəstgahlarındakı kimi, parlaq milli koloritə boyanmış qeyri-adi melodik vəhdətilə fərqlənir. Qəhrəmani çağırış mövzusu, döyüş harayı kimi, xorun başlanmasını hazırlayır. "Çənlibel" – monumental möhtəşəm xalq səhnəsidir. Onun musiqisində həm özünəməxsus milli inkişaf və səslənmə cəhətləri, həm də klassik avropa formayaradıcılıq prinsipləri toplanmışdır.

"Çənlibel" xorunun ümumi quruluşu belədir: iki bölməsi (ekspozisiya və işləməsiz repriza) olan sonato forması. İki sonatonun – Antrakt və "Çənlibel" nömrələrinin – bir birinin ardınca gəlməsi operada çox nadir hallarda olur. Görüngüyü kimi, bəstəkar birdən-birə iki nömrəni büyük açıq kulminasiya kimi qeyd etməklə III pərdənin əhəmiyyətini göstərmişdir. Eyniylə Antrakt kimi, xor da fis-şur tonallığında yazılmış və burada da plaqal əlaqələr çoxluq təşkil edir. Xorun musiqili obrazlarının xarakteri daha işıqlıdır, çünki burada e-moll tonallığı E-dur tonallığına dəyişdirilmişdi. Buna baxmayaraq, xorun hər bir mövzusunun Antraktla əlaqəsi hiss olunur. Bu əlaqə həm bütün melodiyaların kvarta-kvinta diapazonunda, həm də fuqatoda mövzunun kvarta sıçrayışlarında açıq-aşkar görünür. Lakin Antraktda musiqinin inkişafı muğam improvizasiyasına yaxın olduğu halda, "Çənlibel" xorunun xarakteri təntənəli kütləvi mahnılarına yaxındır.

Ekspozisiyanın və reprizanın qarşılıqlı münasibətində iki çox artmış kupletin ardıcıllığı hiss olunur. Ekspozisiyada vahid tempo-ritm ardıcıllığında üç təzadlı və eyni zamanda bir-birini tamamlayan obraz birləşir: əsas mövzu – döyüş mahnısı, köməkçi mövzu – bayram marş-mahnısı və çox uzun (50 xanə) sürətli sonluq – üsyan edən xalqın obrazı.

Bütün bu mövzular öz quruluşuna görə müxtəlifdir: fuqato əsas mövzuda, sadə üçhissəli köməkçi mövzu, sonluqda isə üçfazalı artan parçalanma. Təzadlara baxmayaraq, bütün mövzular daxilən dinamik vəhdət təşkil edir. Buna birbaşa gedən ritm inkişafı, ayrı-ayrı quruluşların yumşaq, axar keçidləri, intonasiya birliyinin vasitəsilə nail olunur. Xorun hər iki hissəsinin (mövzu cəhətdən eyni olan) formasının inkişafının sonunda tonallıq keçidləri sonato forması üçün səciyyəvidir.

Həmçinin "Çənlibel" xorunun forması bir başqa mənada da unikaldır:

burada materialın açılmasında sonato və fuqa prinsiplərinin birləşməsi baş verir. Həm ekspozisiyanın, həm də reprizanın əvvəli miqyaslı mövzunun fuqatosu şəklində verilir. Mövzu növbə ilə baslarda, tenorlarda və sopranolarda keçir. Mövzunun özü xüsusi bir period formasındadır, harada ki, üç məqam qeyd olunur: tonikanın elan olunması – bir növ impuls; şur ladının vacib səsi olan tonikanın kvartasına (yəni qeyri-sabitliyə) doğru gedən inkişaf və, nəhayət, onun həlli – tonikaya doğru hərəkət. Beləliklə, bütün mövzu parlaq, aydın melodik dalğa şəklini almış olur.

"Çənlibel" xoru – dinamik inkişafın durmadan artmasının və sonluq partiyasında apogeyə çatmasının nadir nümunəsidir. Bütün xor döyüş ruhlu cəngi ritmində gedir, bu cəhət orkestrdə səslənən zərb alətləri və zurnanın kəskin tembri ilə də gücləndirilir. Sonluq partiyasında dinamikanın istiqamətinin yüksəlməsinə intonasiyanın əvvəl kvarta, sonra isə kvintaya sıçraması ilə nail olunur. Bu da qüdrətli əsas kulminasiyaya gətirib çıxarır və üsyan etmiş xalqın yenilməzdiyi effektini yaradır. Bu effekt Koroğlunun səhnəyə at üstündə çıxışıyla da gücləndirilir.

Baslar on bir xanə ərzində yüksək registrdə cəngi ritmində "Xanları yığdı" sözlərini təqti edirlər. Bu da xalqın qüdrəti və sarsılmaz iradəsi təsəvvürünü yaradır. Sonuncu iki xanədə təkrarlanan "Hey!" harayının bütün xorla unison ifası isə bu insanların birliyini və qardaşlığını qeyd edir.

IV pərdədə bir neçə nömrə saray həyatının koloritli mənzərəsini təsvir edir. Səhnədə saray qızları qonaqları əyləndirərək oxuyub rəqs edirlər (Xanəndə qızın mahnısı və "Gözəl xanım" xoru). Bu incə, zərif melodiyalarda xalgın gözəllik idealı əks olunub. Xanəndə qızın mahnısı – müəllifin yeganə olan iki nəqaratlı kuplet formasıdır. Müğənninin birinci nəqaratı xorun kiçik müşayiətilə səslənir, ikincisi isə qadın xoru tərəfindən ifa olunur. Nəqaratlar bir birinin ardınca yerləşdirilib və bənddən özünün aydın rəqsvari ritmi ilə fərqlənir.

V pərdədə səslənən "Gəl rəhm et, ey xan" xoru sadə period formasında yazılıb. Burada bir motivin təkrarlanmasına əsaslanan sadə quruluşlar üstünlük təşkil edir. Bu xor – Nigarı və onun dostlarını əff etmə yalvarışıdır. Birinci dörd xanə əvvəl *fis-moll* tonallığında 4 dəfə, sonra isə yenə də 4 dəfə bir ton yuxarı, *gis-moll*da verilir. Koroğlu böyük dəstəsi ilə dostlarının imdadına yetişir. Düşmən yıxılır. Xalq xoşbəxtdir. Koroğlu özünün səmimi məhəbbət dolu ariozosunu oxuyur. Ona cavab olaraq Nigar xalqın və onun qəhrəmanı olan Koroğlunun şərəfinə himn oxuyur. Döyüşçülər əzmli rəqs oynayır. Xalq şadlanıb sevinir və qələbə bayramını tərənnüm edir. Uvertüranın apafeozlu mövzusu təntənəli səslənir.

Beləliklə, Ü.Hacıbəylinin misilsiz şedevr olan "Koroğlu" operasından xorların dirijorluq dərslərində öyrənilməsi böyük tədrisi əhəmiyyətə malikdir. Bəstəkarın yaradıcılığı Azərbaycan mədəniyyətinin görkəmli səhifəsidir. O, dinləyiciləri öz bədii obrazlarının saflığı və ecaskarlığı ilə məftun edərək,

dünyamızı daha da gözəlləşdirərək, əbədi olaraq bu mədəniyyətdə yaşayıb qalacaq.

Məqalədə ilk dəfə olaraq "Koroqlu"operasının bütün xorları həm musiqi dili cəhətdən, həm də ifaçılıq planı cəhətdən təhlil olunur və onların tədrisdə əhəmiyyəti açıqlanır.

ƏDƏBİYYAT

1. Abdullayeva Z. Azərbaycan musiqi ədəbiyyat. Bakı, 2009
2. Dadaşova E., Əliyeva M. Dirijorluq və onun tədrisi metodikası. Bakı, 2013
3. Qafarova Z. Üzeyir Hacıbəyovun "Koroğlu" operası. Bakı, 1994
4. Əfəndiyeva E. Musiqi əsərlərinin təhlili. Bakı, 2009

Məqalənin redaksiyaya daxil olma tarixi: 20.10.2019
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 21.11.2019
Məqalənin çapa qəbul olunma tarixi: 29.12.2019
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.